# ◆ Poeziya



*İlham QƏHRƏMAN*

## SƏNİ SEVMƏK

Səni elə sevdim -
elə bil diqqətimi cəmlədim
giləsi də düşməsin deyə
ikiəlli nar dənələdim.

Saatın bütün mexanizmləri,
əqrəbləri hərləmək,
mənim bütün əzalarım
səni sevmək üçündür.

İki hiss var
ömür boyu məni tərk etməz:
bir müsəlman olmağım,
bir səni sevməyim.

* * *

Kim halından halı bilər
bu halı, haldan olmuşun?!
Nə sağı haraya yetər,
nə solu, soldan olmuşun.

Həsrət sevgi sazağıdır,
ərimeyən buz dağıdır.
Bizim dağlar göz dağıdır,
yox yolu yoldan olmuşun.



Sel çayda həşir qoparır,
dalğalar enir, qabarır...
Həm körpünü sel aparır,
həm salı saldan olmuşun!

## QÜRUR

Çayın gendə dayaz,
darda gur yeri var.
Cənab zabit, çoxdandı
qürur deyilən hissi yadırğamışdım,
sənin kimi oğullarda
xalqın qürur yeri var.

Səni görəndən sonra səndən çoxuna dedim,
səndən çoxuna bəhs etdim.
Səni tanıyandan sonra
bir körpə əlini əlimdə hiss etdiyim kimi
qürur yerimi hiss etdim.

Cənab zabit, öyrətmək olmasın...
ordu odu ki,
əsgəri özünü yurdun
ağacı, daşı, otu,
qatlanmayan dizi bilsin!
Zabit o kəsdi ki,
əsgəri vətənin özü bilsin!
Cənab zabit, əsgəri sevən zabitdi
Vətəni sevən zabit!
Cənab zabit,
əsgərlik bazar,
müharibə can sövdasıdı!
Qarabağ əsirlikdə...
nə deyə bilmirəm
Allah bazar versin,
nə deyə bilmirəm
Allah bazar verməsin!
Hamı qələbə gözləyir -
istər cavan olsun,
istər qoca olsun.
Qoy qürur yerimiz
bayraq yerimiz kimi
həmişə uca olsun!

* * *

Canım, telli balam,
hissim torpaq kimi
əsirdi, ilhaqdı.
Hər yerdən görünür, -
mənim yurd həsrətim
yol kimi çılpaqdı.

## MƏKTUB

Mən səni görə bilmirəm,
durnalar salam gətirər.
Bu bir durna sevgisidir,
ayrısı yalan gətirər.
Mənim yaşda olan kişi
bir yerdə çox dura bilmir.
Ürəyindən keçən olsa,
adıyla axtara bilmir.
Mənə bir məktub yazasan,
qırağına gül çəkəsən.
Qəfil böyürdən çıxasan,
saçıma bir əl çəkəsən.
Kiprik ilə qor götürdük,
bu sevgidə oddan keçdik.
Sevgi körpüdü deyirlər -
biz körpünün altdan keçdik.
Sən gün deyilsən, mən də buz,
məni necə əridirsən?!
Su şüşədə sakit axır,
məni də sən kiridirsən!

## ÇIXAR

*(təcnis)*

İşlərəm mənə iş düşsə,
haya gələrəm iş düşsə.
Səni sevənə iş düşsə,
ortaya min cani çıxar.

Yıxılsam, əl atıb tutmur,
ahım onu niyə tutmur?!
O geydiyin səni tutmur,
sən dədəmin canı - çıxar!

Gələn nə gözəl sonadı,
heyif, yolumuz sonadı!
Ölüm yaşamın son adı,
bu canımın canı çıxar.

## TƏK

Bir düzün ortasında, bitən
ağac kimi, təkəm, telli balam...
Mənim təkliyim yerdə
çəkdiyim ahdan,
göydə Allahdan gəlir,
telli balam.

Kim bilir, başıma
nə gəldi, telli balam?!



Təklər bu dünyada
tək əldi, telli balam.

Sevinc göz yaşında boğulur,
kədərin çiçəyi çırtdayıb,
kədərim gülüşür,
telli balam.
Bütün qəmli mahnılar
təkliyin səsidi,
qəmli mahnılar sümüyümə düşür,
telli balam!

İtsəm məni necə nişan verərsən,
necə soraq edərsən, telli balam?!
Heç kimin qəlbinə dəyməyən,
qəlbi ipək adamı,
ürəyi sözə pətək adamı,
adamların arasında
tək adamı, necə soraq edərsən,
telli balam?!

Təkəm, telli balam, -
tək səbir kimi,
Şamaxı yolundakı
tək qəbir kimi!
Belə tək olan
tək mənəm,
bu təkliyimlə
görk mənəm, telli balam!

## QIZIMI KÖÇÜRDÜM

Qızımı köçürdüm,
(Sağ əlim qızı olanların başına!)
Əvvəl çörəkçi duydu -
aldığım çörəyin azlığından.

## ƏSGƏR GÖRMƏK

Bəşərin ilk əsgəri
hirsi, hikkəsi olub
alçaq, qorxaq, tərs adamın...
Əsgər görmək
hər mənada kədərlidi:
istər Buşun olsun;
istər Səddamın.

## VƏTƏN

Bizdən sonra
uğuruna kim çıxar,
səni kim qarşılayar,
qaranlıqdan işığa

kim ötürər, Vətən?!
Şairəm -
dərdini necə deyim,
necə sığışdırım
sətirə, Vətən?!
Elə kiçilmisən,
yumaq olmusan,
səni quş dimdiyində
götürər, Vətən!

## ÖLÜMÜNƏ ÇALAN ARI

O Haqqın tayının
üstə heykəldi,
səmti Haqqa tərəf,
Haqqa sarıdı.
Acı sözlərini
ona çox görmə,
şair ölümünə
çalan arıdı.

## CANIM

Dərdin üzü bostan üzü,
vərrəyib ölərik, canım.
Haqq boğular yanımızda,
çərrəyib ölərik, canım.

Kimə bəlli nə satdığı,
bizə qaldı kasadlığı.
Dünya başın tasadlığı,
hərrəyib ölərik, canım.

Ayrı saldı hasar bizi,
hamı küncə qısar bizi.
Bir soyuq tər basar bizi,
tərrəyib ölərik, canım.

## SULANMIŞ YUXA KİMİYƏM

Saç bir ömür rəssamıdı,
qaradan ağa kimiyəm.
Meyvə bağında ağacam,
yerdən calağa kimiyəm.

Nə edərdin bə sən dərdə,
rüzgar belə əsən yerdə?!
Əyri düzü kəsən yerdə
hökmsüz ağa kimiyəm.

İlhama qalacaq xaslar,
bu üzümdü, bu da astar.
Elə kövrəlmişəm, dostlar,
sulanmış yuxa kimiyəm.